-

**Azərbaycan Respublikasının**
**Xarici İşlər Nazirliyi**

Haraya: ***TƏMİMİ***

Məlumat üçün:

Göndərilmə nömrəsi: 8/37-3563/02/17 Tarix: 09.02.17

| | | | |
|---|---|---|---|
| Sənəd göndərilir: | elektron poçt | | |
| Vərəqlərin sayı: | -2+2 - | Əlavə: | |
| Məxfilik qrifi | Adi | | |
| Təcililiyi: | **Çox Təcili*** | | |
| Vacibliyi: | **Çox Vacib*** | | |

Nəzərinizə çatdırırıq ki, **5-6 may 2017-ci il tarixlərində** Bakıda növbəti IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçiriləcəkdir. Bununla bağlı, AR Mədəniyyət və Turizm Nazirliyindən *(MvTN)* aldığımız məktubu diqqətinizə təqdim edirik:

Forumun əhəmiyyətini nəzərə alaraq onun yüksək səviyyədə keçirilməsi məqsədilə indiki mərhələdə aşağıdakı tədbirlərin görülməsini zəruri hesab edirik:

- Foruma dair **https://we.tl/63H3SF9sUx** linkində yerləşdirilmiş dəvət məktublarının *(448 ədəd)* **15 gün ərzində** həmin mənbədən yüklənməsi, nəzərdən keçirilməsi və aidiyyəti üzrə ünvan sahiblərinə çatdırılması (rəngli blanklarda);
- İmkan daxilində xarici ölkələrdə və beynəlxalq təşkilatlar yanında akkreditə olunmuş diplomatik nümayəndəliklər tərəfindən dəvət məktublarının yüksək vəzifəli şəxslərə şəxsən və tezliklə təqdim edilməsi;
- Diplomatik nümayəndəliklər tərəfindən tədbirə dəvət olunanların iştiraka təşviq edilməsi üçün lazımi tədbirlərin görülməsi;
- **NBMT:** BMT Baş katibinin Forumda iştiraka təşviq olunması və razılığı olduğu təqdirdə Beynəlxalq Təşkilatların birinci Yüksək Səviyyəli Görüşünə həmsədrlik etməsi;
- Forum haqqında ətraflı məlumatın www.bakuprocess.az səhifəsindən əldə edilərək müvafiq iclas və görüşlərdə paylanılması.

Forumla əlaqədar təşkilati məsələlərə cavabdeh AR MvTN-nin Milli Təşkilat Komitəsidir:
*Tel:* +99412 4930233; +99412 5998200; +99412 5998202,
*Mob:* +99450 3846428,
*E-mail*: forum2017@bakuprocess.az ; forum@mct.gov.az

XİN üzrə əlaqələndiricisi MHSİ-nin birinci katibi Günay Rəhimovadır:
*Daxili* #2326 (+99412 5969326);
*Email:* gh_rahimova@mfa.gov.az;
*Mob:* +99451 3136144.

Görülmüş işlər barədə Mərkəzin daimi məlumatlandırılması xahiş olunur.

**Nazir müavini** **Mahmud Məmməd-Quliyev**

MHSİ-nin rəisi Marat Kəngərlinski

İcraçı Günay Rəhimova
(#2326)

09.02.17

*İstinad: 4/1629/17, 06.02.17*

4/1629/17
06.02.17

# AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

AZ 1095, Bakı şəhəri, Hökumət evi,
Ü. Hacıbəyov küçəsi, 40

Tel.: (+99412) 493-30-02
Faks: (+99412) 493-56-05

Elektron poçt: mct@mct.gov.az

№ 275/08

"06" 02 2017 il

**Azərbaycan Respublikasının**
**xarici işlər naziri**
**cənab Elmar Məmmədyarova**

**Təcili! Vacib!**

**Hörmətli Elmar müəllim,**

Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin himayəsi və dəstəyi ilə həyata keçirilən yerli və beynəlxalq layihələr ölkəmizin qlobal səviyyədə nüfuzunu daha da artıraraq mədəniyyətlərarası dialoqun təbliğində mərkəzi rol oynamasına imkan yaratmışdır. Bilavasitə cənab Prezidentin təşəbbüsü ilə həyata keçirilən "Bakı Prosesi" çərçivəsində 2011, 2013 və 2015-ci illərdə I, II və III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumlarının, habelə 2016-cı ildə BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun ölkəmizdə təşkili bunun əyani sübutudur.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 may tarixli, 432 nömrəli Fərmanına uyğun olaraq YUNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası, İSESKO, Avropa Şurasının Şimal-Cənub Mərkəzinin tərəfdaşlığı ilə **2017-ci ilin 5-6 may tarixində Bakıda növbəti 4-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu** keçiriləcəkdir. Forum çərçivəsində ilk dəfə Beynəlxalq Təşkilatların Yüksək Səviyyəli Toplantısı, həmçinin Dünya Forumu Nazirlər Görüşü təşkil olunacaqdır.

Hazırda Beynəlxalq tərəfdaşlarla birgə Forumunun təşkilati məsələləri ilə bağlı müvafiq işlər aparılır və tədbirə dəvət ediləcək şəxslərə məktublar Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri, YUNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, BMT-nin Ümumdünya Turizm Təşkilatı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası, İSESKO, Avropa Şurasının rəhbərləri imzalamışdır. Xüsusilə qeyd edilməlidir ki, beynəlxalq təcrübədə ilk hadisədir ki, məhz ölkəmizin təşəbbüsü ilə həyata keçirilən tədbirin dəvət məktubunu altı beynəlxalq qurumun rəhbəri imzalayır. Forumun proqramı, konseptual müzakirə sənədləri, locistik məsələlər barədə məlumat www.bakuprocess.az internet səhifəsində yerləşdirilmişdir.

Məsələnin xüsusi əhəmiyyətini nəzərə alaraq müvafiq dəvət məktublarını diplomatik kanallar vasitəsilə aidiyyəti üzrə çatdırılması və dəvət olunan ölkələrin və təşkilatların tədbirdə iştiraka təşviq edilməsi üçün aşağıdakı tədbirlərin görülməsini vacib hesab edirik:

1. Forum çərçivəsində müxtəlif sahələri təmsil edən Beynəlxalq Təşkilatların 1-ci Yüksək Səviyyəli Görüşünün təşkil edilməsində AR Xarici İşlər Nazirliyinin dəstək göstərməsi və müvafiq idarələrin bu prosesə cəlb olunması;
2. Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri tərəfindən dəvət məktublarının həm ölkələrə, həm də təşkilatlara təqdim olunması və dəvət olunan tərəflərin iştiraka təşviq edilməsi üçün lazımi tədbirlərin həyata keçirilməsi;
3. Ölkəmizin xüsusilə BMT və YUNESKO yanında Daimi Nümayəndəlikləri tərəfindən müvafiq ölkə və təşkilatlarla təmasların qurulması və Forum barədə müvafiq iclas və görüşlərdə məlumatın paylanılması (məlumatı www.bakuprocess.az internet səhifəsindən əldə etmək olar), habelə dəvət məktublarının yüksək vəzifəli şəxslərə şəxsən təqdim edilməsi;
4. BMT baş katibinin Forumda iştiraka təşviq olunması və müvafiq olaraq iştirak edəcəyi təqdirdə Beynəlxalq Təşkilatların 1-ci Yüksək Səviyyəli Görüşünə həmsədrlik etməsi;
5. AR Xarici İşlər Nazirliyi tərəfindən müvafiq olaraq əlaqələndirici şəxslərin təyin edilməsi və onlar haqqında Mədəniyyət və Turizm Nazirliyinə məlumatın təqdim olunması.

Fürsətdən istifadə edib Xarici İşlər Nazirliyinə müvafiq dəstəyə görə əvvəlcədən təşəkkürümüzü bildiririk.

Qoşma: 1 ədəd yaddaş kartı ilə 448 (dörd yüz qırx səkkiz) məktub.

Hörmətlə,

**Nazir** **Əbülfəs Qarayev**